Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Neftin qiyməti son dörd ayın ən yüksək həddinə çatıb

31 dəqiqə öncə




Fars körfəzində döyüş neft bazarını vurdu

Sentyabrın 11-də neftin qiyməti son dörd ayın ən yüksək həddinə çatıb. Buna dünyanın əsas enerji daşıma marşrutlarından ikisinə təhdidlərin artması, tədarükün uzunmüddətli pozulacağı, inflyasiyanın yenidən güclənəcəyi ilə bağlı narahatlıqlar səbəb olub.

"Brent" markalı neft bir gün əvvəl 6 faizdən çox bahalanmışdı. Bu gün isə bir barelinin qiyməti 109 dollar 97 sentə çatıb, daha sonra ucuzlaşıb. **Etalon neftin həftəlik qiymət artımının təxminən 11 faiz olacağı gözlənilir.**

Bu arada ABŞ və İran arasında qarşılıqlı zərbələr davam edir, Hörmüz boğazından neft daşınması məhdud olaraq qalır. İranın dəstəklədiyi husi üsyançılarının Yəmənin

Qırmızı dəniz sahilindəki Moxa limanını ələ keçirməsi isə Babül-Məndəb boğazından gəmiçiliyin təhlükəsizliyi ilə bağlı narahatlıqları artırıb.

Neftin bahalaşması dünya bazarlarında inflyasiya ilə bağlı narahatlıqları gücləndirib. **İnvestorların faiz dərəcələrinin yenidən artırılacağına dair gözləntiləri yüksəlib**, bu isə dövlət istiqrazlarının gəlirliliyini kəskin artırıb.

"JPMorgan"ın analitikləri inkişaf etmiş ölkələrin doqquz mərkəzi bankından səkkizinin ilin sonunadək faiz dərəcələrini artıracağını gözləyirlər. Pul siyasətini müəyyənləşdirən qurumlar davamlı inflyasiya və xammalın bahalanması ilə mübarizə aparırlar.

+++

Bu həftə Yəməndə İranın dəstəklədiyi husilər Səudiyyə Ərəbistanının bir neçə şəhərinə zərbələr endirib. Bununla ABŞ-nin müttəfiqi olan Səudiyyə Ərəbistanı münaqişəyə daha çox cəlb olunub.

ABŞ qüvvələri İranın bir neçə neft tankerini vurub, İran isə İordaniyadakı ABŞ bazasını hədəfə alıb.

Analitiklərə görə, Səudiyyə Ərəbistanı neft ixracının bir hissəsini Hörmüz boğazından kənar marşrutlara yönəltsə də, krallığa davamlı hücumlar xam neftin dünya bazarlarına fasiləsiz çatdırılması səylərini çətinləşdirə bilər.

**"İranın Səudiyyə Ərəbistanının enerji obyektlərinə hücumları və bunun ardınca İranın beş tankerinin məhv edilməsi neft təchizatında növbəti uzunmüddətli fasilənin yaranacağı ilə bağlı narahatlıqları artırıb"**, – OCBC analitikləri bildiriblər.

## Buna da bax:

Tramp: Hörmüz boğazından hər gecə 30 gəmi keçir

İran müharibəsinin 6 ayı, bundan sonrası 4 məsələdən asılıdır

İrana yeni zərbələr 'Hörmüzə görə xəbərdarlıqdır'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur